MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVII buraxılış, Bakı, 2025
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLVII выпуск, Баку, 2025
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLVII edition, Baku, 2025

**UOT: 75**
**https://doi.org/10.52094/2221-7584.2025.47.0274**

**Ayan Novruz qızı Xəlilova**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dissertantı**
**E-mail: ayan.khalil7@gmail.com**

# AZƏRBAYCANIN AVESTA MOTİVLİ SÜJETƏ XAS KAŞI NÜMUNƏLƏRİNİN BƏDİİ XÜSUSİYYƏTLƏRİ

**Xülasə.** Məqalədə Azərbaycan kaşı sənətində “Avesta” motivli süjetli kaşı nümunələrinin bədii və simvolik xüsusiyyətləri araşdırılır. Burada süjetli kaşıların yalnız ornamental-dekorativ mahiyyəti deyil, eyni zamanda, onların dini-fəlsəfi və mifoloji təsəvvürlərin əyani ifadəsi olduğu da vurğulanır. Daha geniş mənada desək, Zərdüştilik dininin kosmoloji və esxatoloji təlimləri əsasında yaradılmış bu kaşılar yalnız estetik dəyər daşımır, eyni zamanda dini-ideoloji sistemin elementlərini sənətdə əks etdirir. Bu kaşı nümunələrində Vizarşanın, kahinlərin, Məhşər səhnələrinin və müqəddəs atributların (yeddipilləli taxt, qurbangah, barsman, müqəddəs nar, ox-yay və s.) vizual təqdimatı vasitəsilə zərdüştilikdəki dualist dünyagörüşü, mükafat-cəza anlayışı və müqəddəslik sistemləri təhlil olunur. Hər bir kaşı kompozisiyası müəyyən dini mətnlərin, xüsusilə “Avesta”nın təsvir və təlimlərini əks etdirir.

Zərdüştün dəvə karvanına rəhbərliyi, kahinlərin iyerarxik quruluşu və ruhların mühakimə səhnələri bu kompozisiyalarda obrazlı şəkildə təqdim olunaraq, Zərdüştiliyin fəlsəfi əsaslarını və ictimai ideallarını əyani şəkildə canlandırır. Məqalədə tədqiq edilən nümunələr Azərbaycan kaşı sənətinin təkcə dekorativ deyil, həm də dərin mənəvi və ideoloji yük daşıyan sənət nümunəsi kimi dəyərləndirilməsini nümayiş etdirir.

**Açar sözlər:** Azərbaycan, kaşı sənəti, Avesta, motiv, süjetli kompozisiya, bədii xüsusiyyət

Azərbaycanda ornamental və epiqrafik motivli kaşı nümunələri ilə yanaşı süjetli kaşı nümunələri də mövcuddur. Süjetli kaşı nümunələri özünün müxtəlif forma-biçimi və mövzu rəngarəngliyi ilə seçilir. Azərbaycanda süjetli kaşı

nümunələri içərisində Avestadan götürülmüş mifoloji səhnələri əks etdirən bədii kaşı nümunələri xüsusilə seçilir. Lakin bəzi mənbələrdə süjetli kaşılar içərisində Şərq poeziyasını, xüsusilə Firdovsinin, Məhəmməd Füzulinin əsərlərini özündə ehtiva edən kaşı nümunələrinin mövcudluğu haqqında da qeydlər vardır. *"XVI-XVII yüzilliklərdə Azərbaycanda olmuş xarici ölkə səyyahları burada sarayların, hamamların və başqa ictimai tikintilərin tərtibatında bəzəkli kaşılardan geniş istifadə edildiyini bildirirlər. Övliya Çələbi xəbər verir ki, öz gözü ilə təkcə Təbrizdə bədii kaşılarla divarları və günbəzləri bəzədilmiş 700-dən artıq hamam görmüşdür. Onun bu kaşılar üzərində Füzulinin əsərlərindən götürülmüş mövzuların olması haqqında verdiyi məlumatlar da çox maraqlıdır. Övliya Çələbinin Naxçıvan hamamlarında gördüyü süjetli kaşılar diqqəti xüsusilə cəlb edir" (Əfəndi R., 2007, s.164).*

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanın süjetli kaşı nümunələri içərisində Avesta ehkamlarını özündə əks etdirən kaşı nümunələri özünün bədii-texnoloji xüsusiyyətinə görə xüsusilə seçilir. Başqa sözlə desək, Zərdüştilik dinində mövcud olan dualist kosmoloji dünyagörüşü və axirətə dair təsəvvürlər Azərbaycan kaşı sənətində də dərin izlər buraxmışdır.

Tədqiqatlarda Zərdüştilik dininin esxatoloji və kosmoloji təsəvvürlərinin plastik sənətdə, xüsusilə dekorativ-tətbiqi sənətin bir qolu olan kaşı sənətində əksini tapdığı müşahidə olunur. Bu kaşı nümunələri yalnız bədii estetikanın daşıyıcısı deyil, eyni zamanda dini-fəlsəfənin, mifoloji düşüncənin və metafizik simvolların əyani təcəssüm formasıdır. Aşağıda təqdim olunan kaşı kompozisiyaları Zərdüştilik təsəvvür sisteminin, xüsusilə "Avesta"da təsvir edilən Məhşər səhnələrinin, ruhların taleyi və cəza-mükafat sisteminə dair motivlərin bədii interpretasiyası kimi təhlil oluna bilər.

Məlumat üçün qeyd edək ki, *"Tədqiqatçılar iudaizmdə, xristianlıqda, islamda və buddizm də erkən İran dini ayinlərdən və yaxud Zərdüşt təlimindən çoxlu elementlərə rast gəldiklərini bildirir. Əlbəttə, həm də zərdüştilik özü də yadelli təsirlərə məruz qalmış, Sasani hakimiyyətinin son dövründə, görünür, xarici dinlərin təsiri altında müqəddəs sözün yazıya alınmasına böyük əhəmiyyət verilmişdir. O vaxtlar istifadə olunan pəhləvi (orta fars, aramidən yaranan) əlifbası ilə bu yazılı abidələr yazıya alındı. Nəhayət, zərdüştiliyin bu müqəddəs*

*yazıları "Avesta" adını aldı. Bu sözün dəqiq mənası müəyyənləşməyib, ehtimal edilir ki, ola bilsin o, "öyrətmə, təlimat, nizamnamə" və yaxud "tərifləmə, mədh etmə" məna sındadır" (Avesta, 2017, s.14 )*

Bəhs edilən mövzuda ən maraqlı kaşı nümunələrindən biri Avesta ehkamlarına görə Məhşər səhnəsinin əyani təsviri və Vizarşanın (Günahkarların ruhunu cəhənnəmə aparan demonik varlıq) simvolizmini əks etdirir (Şəkil 1). Bu kaşı nümunəsində "Avesta" yazılarında qeyd olunan Məhşər səhnəsi əks etdirilmişdir. Kompozisiyanın mərkəzində iri, V-formalı ornament yerləşir. Sarı rəngli haşiyə daxilində ağ rəngli V-şəkilli naxışın mövcudluğu Zərdüşti kosmoloji sistemdəki dualist (işıq və zülmət) dünyagörüşünü simvolizə edir. Mərkəzi ornamentin yuxarı sağ hissəsində ağ nöqtələrlə işarələnmiş, quş başlı, buynuzlu və quyruqlu qara rəngli cin oturmuşdur. Onun sağ əlində başqa bir cinin başı təsvir olunub, qarşısında isə qara, çəhrayı və firuzəyi rənglərlə işlənmiş stilizə olunmuş bitki motivi yerləşdirilib. Kompozisiyanın yuxarı sağ küncündə qaradan yaşıla çalan, yarımdairə formalı, funksiyası aydın olmayan bir obyekt təsvir edilib. Bu elementin simvolik mənası ehtimal ki, axirət aləminin sirli və anlaşılmaz təbiətini ifadə edir. Rəhilin arxasında küncdə kahinlərin əyləşməsi isə dini hakimiyyətin və mühakimə prosesinin şahidliyini təmsil edir.

Avesta ehkamlarını özündə əks etdirən süjetli kaşı nümunələrindən biri də ruhların sonrakı taleyinə həsr olunmuş kosmo-esxatoloji kompozisiyadır. Bu kompozisiya Zərdüşti kosmologiyasının ölümdən sonrakı mərhələlər haqqında təsəvvürlərini əks etdirir. Kaşının sol – aşağı tərəfində üç qara cin tərəfindən tutulmuş taxtda oturan baş kahin (maq) təsvir olunmuşdur. Onun qurşağadək uzanan qara saqqalı və dizlərini bükərək əyləşməsi onun dini səlahiyyətini və mənəvi gücünü vurğulayır. Sağ ovcunda Zərdüştilikdə məhsuldarlıq, dirçəliş və müqəddəslik simvolu hesab edilən müqəddəs nar təsvir edilib. Onun başı üzərində qanadlarını açmış firuzəyi rəngli quş – yüksək mənəvi ilhamın və dini aləmlə əlaqənin simvolu kimi hesab edilə bilər. Kahinin qarşısında üzərinə açıq kitab qoyulmuş rəhil vardır. Bu isə zərdüştilikdə "Avesta"nın ilahi bilik daşıyıcısı kimi qəbul olunmasını simvolizə edir.



**Şəkil 1. XVI-XVII əsrlərə aid "Məhşər səhnəsi" əks edilmiş kaşı nümunəsi**

Baş kahinlə üzbəüz, sağ əli ilə əsaya söykənmiş altı kahin təsvir olunub. Onların geyimləri (firuzəyi, sarı və tünd çəhrayı rəngli libaslar) zərdüşti kahinlik sistemindəki iyerarxiyanı və funksional fərqliliyi əks etdirə bilər. Kompozisiyanın aşağı sağ hissəsində iki sarı şir və bir qara it təsvir edilib ki, bu heyvanlar öz növbəsində Zərdüşti mifologiyada həm qoruyucu, həm də cəzaverici qüvvələr kimi xarakterizə olunur. Kaşının fonunun açıq-göy rəngdə olması isə onun əbədi səmavi aləmə işarə etməsini simvolizə edir.

Avesta motivli kaşı nümunələrindən biri də yeddipilləli taxt və "Yeddi müqəddəs varlıq" anlayışını özündə əks etdirən kaşı kompozisiyasıdır (Şəkil 2). Bu kaşıda baş kahin yeddipilləli taxtda əyləşmiş halda təsvir edilib. Zərdüştilikdə yeddi müqəddəs varlığın (Ahura Mazda və altı Ameşa Spenta) olması, bu rəqəmin dini semantik dəyərini izah edir. Kompozisiyada on iki süjet xətti üzrə qurulmuş sahələr müəyyən edilir. Taxtın zirvəsində dizlərini bükmüş vəziyyətdə baş kahin əyləşib, aşağıda isə üç kahin dinləmə və nitq söyləmə mövqeyində

təsvir olunub. Hər birinin qarşısında üzərinə kitab qoyulmuş rəhil yerləşir. Tam mərkəzdə V-formalı kitabə – ilahi bilik və qanunun işarəsi kimi çıxış edir.

Taxtın altında iki kahin və sağ aşağı küncdə günah içində olan, kürəyi üstə uzanmış, cəzalandırılan bir kahin təsvir olunmuşdur. Bu səhnə Zərdüştilikdəki etik sistemə əsaslanan mükafat və cəza konsepsiyasını bədii görüntüyə gətirir. Personajların geyimləri (sarı, çəhrayı və firuzəyi libaslar və qara kəmərlər) zərdüşti ayinlərinin estetik şifrələrini özündə ehtiva edir. Bu kaşı nümunəsində də yerlik – fon açıq-göy rəngdə təqdim edilib.

Dünya oxu və qurbangah motivi əks olunmuş kaşı kompozisiyası da özünün maraqlı bədi-texnoloji həlli ilə seçilir. Kompozisiyanın mərkəzində qurbangah (zərdüştilikdə kainatın "oxu" kimi şərh edilən simvol) yerləşir. Qurbangahın yuxarı hissəsindəki alov – ilahi nur, Cənnət feyzi və ruhun saflaşma mənbəyini simvolizə edir. Aşağıdakı alov isə günahkarların ruhunu yandıran Cəhənnəm atəşi, eyni zamanda tövbə və paklanma vasitəsi kimi şərh edilir. Bu ikili struktura Zərdüşti dünyagörüşünün əsasını təşkil edən "ikilik - duallıq" prinsipini əks etdirir.

Qurbangah hasarla əhatələnmişdir – bu, müqəddəs məkanın fani dünyadan ayrılmasını göstərir. Mərkəzdə diz çökən bir kahin, iki tərəfində isə başlarını aşağı əyən digər iki kahin təsvir olunub. Qurbangahın hər iki tərəfində quyruqlu qara əcinnələr yerləşdirilib ki, onlar günahların sərhədlərini simvolizə edir. Kaşının fonu firuzəyi rəngdə, kənarları isə göy rəngli V-formalı ornamentlərlə bəzədilmişdir.

Avesta motivli süjetli kaşı nümunələrində təsvir edilən səhnələrdən biri Zərdüştün sarvanlıq etdiyi dəvə karvanını əks etdirir (Şəkil 3). Bu təsvirin kompozisiya quruluşu və detalları Zərdüştün həyat yolu və dini yayma missiyası ilə əlaqələndirilə bilər. Səhnədə bir-birinin ardınca düzülmüş dəvələr hərəkət halında təsvir edilib. Onların üzərində əyləşmiş sərnişinlərin geyimləri, papaqları və duruşları eynilik təşkil edir ki, bu da vahid bir icmanın üzvləri olduqlarını nümayiş etdirir. Onuncu – sonuncu dəvənin üzərində iki nəfər olmaqla, ümumilikdə səhnədə on bir sərnişin əks olunub. Hər bir sərnişinin sağ əli irəli uzadılmış və əllərində barsman (dini mərasimlərdə istifadə edilən,

məstedici təsirə malik bitkinin budağı) tutmuşlar. Bu detallar dini ayinlərin və Zərdüştilik inancının rituallarının əks olunduğunu göstərir.



**Şəkil 2. XVI-XVII əsrlərə aid "Avesta" motivli süjetlə xas kaşı nümunəsi**

Kompozisiyada Zərdüşt xüsusi olaraq fərqləndirilmiş və onun fiquru dəvələrə nisbətən iki dəfə daha böyük ölçüdə təsvir edilmişdir. Bu, onun adi insanlardan daha üstün bir varlıq kimi təqdim edilməsini səciyyələndirir. Zərdüşt karvana rəhbərlik edir və onun sol əlində Hakimiyyət və Qanun rəmzi olan bir atribut yer alır. Bu element onun dini lider və qanunların təbliğatçısı olduğunu vurğulayır.

Dəvə karvanının hərəkət istiqaməti dolanbac yollarla verilmişdir. Əvvəlcə soldan sağa doğru hərəkət edən karvan, plitənin mərkəzi hissəsinə çatdıqda istiqamətini dəyişir və əks tərəfə yönəlir. Hərəkətin bu formada təqdim edilməsi onun simvolik mənasını artırır. Karvanın cənub-qərbdən şimal-şərqə, yəni Midiya və Baktriya istiqamətində irəliləməsi müəyyən tarixi hadisələrlə

bağlı ola bilər. Ehtimal olunur ki, bu təsvir Zərdüştün icma tərəfindən qəbul edilmədiyi dövrdə keçdiyi uzun və çətin yolun simvolik ifadəsidir.



**Şəkil 3. XVI-XVII əsrlərə aid "Avesta" motivli kaşı nümunəsi**

Karvanda on dəvənin olması təsadüfi deyil. Bu rəqəm zöhd axtarışında olan bir fərdin onillik səyahətini ifadə edir. Zərdüştün dini yayma prosesində qarşılaşdığı çətinliklər və uzun illər davam edən mübarizəsi bu səhnə ilə əyani formada əks olunub. Bütün kompozisiyanın fonu firuzəyi rənglə icra edilib ki, bu da Zərdüştilik inancında müqəddəs sayılan səmanı simvolizə edir.

Azərbaycan kaşı sənətində "Avesta"dan götürülmüş süjetli təsvirlər içərisində olduqca maraqlı kompozisiyalar mövcuddur. Belə kompozisiyaların birinin mərkəzində yerləşən sütunun zirvəsində üç nəfər dayanmışdır (Şəkil 4).



**Şəkil 4. XVI-XVII əsrlərə aid "Avesta" motivli kaşı nümunəsi**

Sütunun özü V-şəkilli ağ rəngli ornamentlərlə bəzədilmişdir ki, bu da kompozisiyada dekorativ elementlərin ümumi ahəngdarlığını artırır. Kompozisiyanın sol yuxarı küncündə bir it təsvir olunmuşdur. Onun bir qədər aşağı hissəsində isə əlində qılınc tutan insanla döyüşən cin obrazı bədii görüntüyə gətirilib. Kompozisiyanın aşağı hissəsində isə iki cin bir-biri ilə vuruşur; onlardan birinin əlində xəncər, digərində isə qısa nizə və qılınc vardır. Kompozisiyanın sağ alt küncündə də daha bir it təsvir edilmişdir.

Kaşının sağ yuxarı küncündə bir cinin ox-yayla aşağıya doğru nişan alaraq atəş açmağa hazırlaşdığı təsvir edilib. Kompozisiyanın sağ aşağı küncündə isə qızıl rəngli tərəzinin qarşısında əyləşmiş kahin əks olunub. O, ruhların əməllərini ölçərək onları mühakimə edir. Kaşının yuxarı hissəsində çəhrayı və sarı meyvələri olan yaşıl bitkilər əks olunmuşdur ki, bu da kompozisiyaya təbiət elementləri qataraq onun dinamikliyini artırır.

Nəticə etibarilə qeyd edək ki, tədqiqata cəlb etdiyimiz süjetli kaşı təsvirləri həm dini, həm də mifoloji süjetləri özündə birləşdirərək Zərdüştilik inanclarının, tarixi hadisələrin və dövrün estetik yanaşmasının bədii ifadəsi kimi çıxış edir.

## Ədəbiyyat siyahısı

1. Avesta, (2017). Bakı: "Apostroff", 236 səh.
2. Əfəndi R. (2007). Azərbaycan incəsənəti. Bakı: Şərq-Qərb, 160 s.
3. Hüseynov R., Seyidov A. (2009) Yerin altından qayıtmış gözəllik (Ədəbiyyat muzeyindəki arxeologiya nümunələri). Bakı: "Araz", 328 s.
4. İbrahimova T. (2014). Kaşılar Azərbaycanın tarixi və mədəni irsini öyrənmək üçün qiymətli mənbə. Kataloq. Bakı: 26 s.

**Халилова Аян Новруз кызы**

## Художественные особенности азербайджанских изразцов с мотивами Авесты

## Резюме

В статье исследуются художественные и символические особенности сюжетных изразцов с мотивами «Авеста» в азербайджанском изразцовом искусстве. Подчеркивается, что такие композиции не только носят орнаментально-декоративный характер, но и служат наглядным выражением религиозно-философских и мифологических представлений. В более широком смысле эти изразцы, воплощающие космологические и эсхатологические учения зороастризма, не только несут эстетическую ценность, но и отражают элементы религиозно-идеологической системы в искусстве. Посредством визуального изображения Визарши, жрецов, сцен Страшного суда и священных символов (семиступенчатого трона, жертвенника, барсмана, священного граната, лука и стрел и др.), в статье анализируются дуалистическая картина мира, представления о награде и наказании, а также концепция святости в зороастризме. Каждая композиция интерпретируется как художественное отражение описаний и учений «Авесты».

В этих композициях образно представлены предводительство Зардушта над караваном верблюдов, иерархическая структура жрецов и сцены суда над духами, визуализируя философские основы и социальные идеалы зороастризма.

Рассмотренные в статье примеры демонстрируют оценку азербайджанского изразцового искусства как образца искусства, имеющего не только декоративное значение, но и несущего в себе глубокий духовный и идеологический смысл.

**Ключевые слова:** Азербайджан, изразцовое искусство, Авеста, мотив, сюжетная композиция, художественный элемент

**Khalilova Ayan Novruz qizi**

## Artistic Characteristics of Azerbaijani Tiles with Avesta Motifs

### Summary

This article examines the artistic and symbolic characteristics of Azerbaijani narrative tile artworks inspired by *Avesta* motifs. It emphasizes that these compositions are not merely ornamental and decorative in nature but also serve as visual representations of religious-philosophical and mythological concepts. More broadly, tiles created on the basis of Zoroastrian cosmological and eschatological teachings embody not only aesthetic value but also elements of a religious-ideological system.

Through visual depictions of Vizarsha, priests, Judgment Day scenes, and sacred symbols (such as the seven-tiered throne, fire altar, barsman, sacred pomegranate, bow and arrow, etc.), the article analyzes the dualistic worldview, concepts of reward and punishment, and systems of sanctity within Zoroastrianism. Each tile composition reflects specific religious texts, particularly those from the *Avesta*.

Zoroaster’s leadership of a camel caravan, the hierarchical structure of the priesthood, and scenes of soul judgment are presented figuratively, vividly conveying the philosophical foundations and social ideals of Zoroastrianism. The examples discussed in the article demonstrate that Azerbaijani tile art should

be regarded not only as decorative craftsmanship, but also as a bearer of profound spiritual and ideological meaning.

**Key words:** Azerbaijan, tile art, Avesta, motif, plot composition, artistic feature

***Məqalələrin redaksiyaya daxilolma tarixi: 21.04.2025***
***Məqalənin çapa qəbul olunma tarixi: 01.05.2025***